# Azərbaycanın tərəqqisinə, təhlükəsizliyinə və gələcəyinə zəmin yaradan sənəd

**_Neçə illərdir ki, biz "Zaman Azərbaycanın xeyrinə işləyir" tezisinin real həyatdakı təsdiqinə şahidlik edirik. Son üç ildə isə bu arqument daha qabarıq şəkildə özünü göstərir. Çünki dövlət başçımız Azərbaycanın milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür. İlham Əliyevin xarici siyasətdəki istənilən addımında milli maraqlara, qlobal həmrəyliyə və beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Azərbaycanın BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına hazırkı sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər və atdığı praktiki addımlar da bunu təsdiq edir._**



***Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar.***

***Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamədən Moskva, 22 fevral 2022-ci il***

Zamanın bizim xeyrimizə işlədiyinin göstəricisi olan bəzi faktları yada salaq. Məsələn, Azərbaycan 2020-ci ilin payızında otuz illik erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü bərpa etdi. Nəticədə, düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi imzalandı. Bu sənəd nə zamansa dirçəlmək istəyən düşmənin bütün ümidlərini puç etdi. 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzalandı və bu sənəd işğalçı Ermənistan üçün sarsıdıcı zərbə oldu.

Xatırladaq ki, Vətən müharibəsində əldə etdiyimiz zəfərdən sonra Cənubi Qafqazda formalaşan yeni regional nizamın, konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, hər iki ölkə ilə müttəfiqlik bəyannamələrinin imzalanması bu yeni konfiqurasiyanı rəsmən təsbit edir.

Ekspertlərin fikrincə, öz dostlarını və müttəfiqlərini durmadan artıran Azərbaycan dövlətinin növbəti hədəfi Avropa İttifaqıdır. Məlum olduğu kimi, çoxşaxəli xarici siyasət gündəliyinə uyğun olaraq, ölkəmizin Avropa İttifaqı ilə münasibətləri də yüksələn xətlə inkişaf edir. Bu ilin martında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqu keçiriləcək. Azərbaycan bu ilin birinci yarısında Avropa İttifaqı ilə ikitərəfli saziş üzrə danışıqları bitirmək və sazişi imzalamaq niyyətindədir. Fikrimizcə, həmin sənəd xülyalarla yaşayan işğalçı, separatçı və terrorçu Ermənistan üçün daha ağır zərbə olacaq.

Hələlik isə diqqəti Moskvada imzalanmış bəyannamənin bəzi istiqamətlərinə yönəldək. Fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış edərkən bu sənədin əsas mahiyyətindən geniş şəkildə söz açıblar. Azərbaycan Prezidenti deyib ki, biz bu bəyannamənin hazırlanması üçün bir ildən artıq müddət ərzində çalışmışıq: "Ölkələrimiz arasında çox geniş müqavilə-hüquq bazası vardır, 245 sənəd imzalanıb. Lakin onların arasında bu gün imzalanmış bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Bu bəyannamə bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə çıxarır. Bu, həm böyük imtiyaz, həm də böyük məsuliyyətdir. Biz bu günə təkidlə, uzun müddət əməkdaşlıq potensialını artırmaqla, səmimiyyətə, mehriban qonşuluğa, praqmatizmə, qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan münasibətlər qurmaqla gəlib çatmışıq".

Dövlət başçısı xatırladıb ki, ölkələrimizin müvafiq ekspert qrupları tərəfindən 43 banddən ibarət olan və praktiki olaraq fəaliyyətimizin bütün əsas sahələrini əhatə edən çox geniş sənəd razılaşdırılıb. Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu münasibətlər zamanın sınağından çıxıb və dostluq hisslərinə, qarşılıqlı maraqlara və gələcəyə yönəlməyə əsaslanır. Ona görə ki, bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənməyib, həm də gələcək üçün böyük perspektivlər açır: "Biz qarşılıqlı siyasi fəaliyyəti artıracaq, əvvəl olduğu kimi, yenə bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyəcək, qarşılıqlı ticarətin həcmini artıracaq və gündəlikdəki bütün məsələləri həll edəcəyik".

Rusiya Prezidenti Vladimir Putinin mətbuata verdiyi bəyanatda da mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq məsələləri daha qabarıq şəkildə təqdim edilib. Onun fikrincə, bu bəyannamə dövlətlərarası münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə keçidi ilə əlamətdardır: "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin Rusiya ilə Azərbaycan arasında rəsmi diplomatik əlaqələrin 30 illiyinin tamam olduğu ildə imzalanması çox rəmzi xarakter daşıyır. Ötən onilliklər ərzində Rusiya – Azərbaycan əməkdaşlığı nəzərəçarpacaq dərəcədə möhkəmlənib və genişlənib, siyasi, iqtisadi və humanitar sahələrdə çoxsaylı konkret qarşılıqlı faydalı layihələrlə zənginləşib. Biz, sözsüz ki, möhkəm dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması ənənələrinə əsaslanmaqla əsl sıx qarşılıqlı müttəfiqlik münasibətlərini bundan sonra da hərtərəfli inkişaf etdirmək əzmindəyik".

Azərbaycan Prezidentinin mətbuat üçün verdiyi bəyanatda səsləndirilən məqamlardan biri Moskva – Bakı əməkdaşlığının mövcud səviyyəsi haqqında olduqca aydın təsəvvür yaradır: "Bu gün biz 5 saatdan çox Vladimir Vladimiroviçlə birlikdə olduq. Vaxt hiss olunmadan keçdi. Beş saat intensiv ünsiyyət özlüyündə bizim əlaqələrimizin nə qədər sıx və səmimi olmasının göstəricisidir". Dövlət başçımızın bəyanatında deyilir ki, biz işğaldan azad edilmiş ərazilərdə aparılan işlərdə Rusiya şirkətlərinin iştirakı ilə bağlı məsələlərə də müzakirə etdik, bu işə böyük maraq var: "Bu günə qədər artıq Rusiya şirkətlərindən 14 sifariş alınıb və biz həmin sifarişləri diqqətlə nəzərdən keçiririk. Hesab edirəm ki, bu sahə bizim əməkdaşlığımızın yeni sahəsidir. O, həm praktiki baxımdan faydalı olacaq, həm də bizim qarşılıqlı fəaliyyətimizin səviyyəsini artıracaq".

Bu zaman xüsusilə qabardılmalı olan məqamlardan biri də odur ki, Azərbaycan təkcə Türkiyə Cümhuriyyəti və Rusiya Federasiyası ilə deyil, bütün qonşuları və region ölkələri ilə sıx əməkdaşlıq edir və hamı ilə qarşılıqlı inam və etimad mühitinin yaradılmasına nail olur. Ancaq o da faktdır ki, ölkəmiz türk dövlətləri ilə münasibətlərə böyük önəm verir. 2021-ci ildə adı Türk Dövlətləri Təşkilatına dəyişdirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu ildə Naxçıvan sazişinə əsasən təsis edilməsi Azərbaycanın öz milli kimliyinə, kökünə verdiyi önəmin bariz nümunəsidir.

İlham Əliyevin apardığı xarici siyasətin nəticəsidir ki, ölkəmizin qonşu Gürcüstan və İranla münasibətləri də yüksək səviyyədədir. Eləcə də, Avropanın enerji təchizatında, enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın çəkisi durmadan artır. Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin təşəbbüskarı Azərbaycandır. Yəni müstəqil, öz milli maraqlarına əsaslanan çoxşaxəli siyasət Azərbaycanın beynəlxalq arenadakı rolunun və nüfuzunun yüksəlməsini, region ölkələri, dünyanın güc mərkəzləri ilə etibarlı və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa və onu inkişaf etdirməyə imkan verir.

Sonda xatırladaq ki, Azərbaycanın istənilən uğurundan dərhal sonra bəzi bədxahlarımızın qarayaxma kampaniyasının başlanması artıq xroniki xəstəliyə çevrilib. Moskva Bəyannaməsindən sonra da həmin xəstəliyin simptomları dərhal göründü. Bəzi şəxslərin, siyasi qrupların bu müqavilənin mahiyyətini təhrif etməsi, onun Azərbaycanın müstəqilliyini məhdudlaşdıran, təhlükəsizliyinə xələl gətirən addım olması ilə bağlı iddiaları tam yanlışdır. Bu kimi iddialar sənədin mahiyyətini dərk etməmək və yaxud qərəzli şəkildə onun haqqında yanlış rəy formalaşdırmaq cəhdinin nəticəsidir.

Prezident İlham Əliyevin dediyi kimi, Rusiya və Azərbaycan birgə səyləri ilə Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsi işinə bundan sonra da sanballı töhfələr verəcəklər.

**_İttifaq MİRZƏBƏYLİ,_**
**_"Xalq qəzeti"_**